# Bakı ilə Şimali Qafqazın şəhərləri arasında əməkdaşlıq genişlənir



Novruz bayramı şənliklərində iştirak etmək üçün Rusiya Federasiyasının "Dərbənd şəhəri" şəhər dairəsinin başçısı Hizri Abakarovun rəhbərliyi ilə Dərbənd şəhəri və Maqas şəhərinin meri Beslan Tceçoyevin başçılığı ilə nümayəndə heyətləri Bakıya gəliblər.



Bakıya gəlişlərinin ilk günündə qonaqlar İçərişəhəri gəzib, qədim şəhərin tarixi abidələri, Şirvanşahlar Saray Kompleksi və Qız qalası ilə tanış olub, Heydər məscidini ziyarət ediblər. Martın 18-də nümayəndə heyətləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar. Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı önünə tər güllər düzülüb. Qonaqlar görkəmli dövlət xadimi Əziz Əliyevin də məzarı üzərinə gül dəstələri düzüblər. Daha sonra qonaqlar Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə gül dəstələri qoyublar. Azərbaycan paytaxtının mənzərəsini maraqla seyr edən nümayəndə heyətlərinə Şəhidlər xiyabanının tarixi və Bakıda görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Sonra Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovla Rusiya Federasiyasının Dərbənd və Maqas şəhərləri nümayəndə heyətlərinin görüşü keçirilib. Görüşdə qonaqları salamlayan Eldar Əzizov ölkələrimiz arasında çox qədim dostluq və qonşuluq münasibətlərinin olduğunu deyib. Bildirib ki, ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının rəsmi səfərləri və görüşləri böyük rol oynayır.

Azərbaycan-Rusiya münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayan Eldar Əzizov bildirib ki, bu əlaqələrin qurulmasında Şimali Qafqaz respublikalarının xüsusi rolu var: "Bu gün Azərbaycan ilə Dağıstan və İnquşetiya arasındakı münasibətlər bir çox sahələrdə inkişaf edir. Qarşılıqlı səfərlər əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün yeni imkanlar açır. Yüksəksəviyyəli siyasi münasibətlər iqtisadi əlaqələrə də öz təsirini göstərməkdədir".

Azərbaycan ilə Şimali Qafqaz xalqlarının uzun əsrlərdən bəri sülh və dostluq şəraitində yaşadıqlarını söyləyən "Dərbənd şəhəri" şəhər dairəsinin başçısı Hizri Abakarov deyib ki, ölkəsində Azərbaycan ilə münasibətlərə xüsusi önəm verilir. Maqas şəhərinin meri Beslan Tceçoyev Bakıda göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirərək bu səfərin Bakı və Maqas şəhərləri arasında əlaqələrin möhkəmlənməsində xüsusi rol oynayacağını qeyd etmişdir. Hər iki nümayəndə heyətinin rəhbərləri Bakı şəhərinin gözəlliyinə valeh olduqlarını, burada aparılan geniş abadlıq və quruculuq işlərini yüksək qiymətləndirdiklərini bildirmişlər.

Sonra Bakı şəhəri ilə Dərbənd və Maqas şəhərləri arasında birgə əməkdaşlıq haqqında memorandum imzalanmış, xatirə hədiyyələri təqdim olunmuşdur.

Səfər çərçivəsində Dərbənd və Maqas şəhərləri nümayəndə heyətləri Bakıda təşkil edilən Novruz şənliklərində iştirak edəcək, eyni zamanda qonaqlar Heydər Əliyev Mərkəzi və Azərbaycan Xalça Muzeyi ilə tanış olacaq, Dənizkənarı Milli Bulvarı gəzəcəklər.

***Elçin CƏFƏROV, "Azərbaycan"***